**Dövlət başçısının 2021-ci il oktyabr ayında imzaladığı "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamda qeyd edilirdi ki, 2022-ci ilin dövlət büdcəsinin layihəsində sosial ödənişlərin artırılması ilə bağlı islahatlar aparılacaq. Bu barədə verilən məlumatlarda qeyd edilmişdi ki, islahatlarda, sərəncamda qeyd edildiyi kimi, əmək müqaviləsi ilə çalışanların böyük qisminin əməkhaqları artırılacaq və bu sosial dəstək 1 milyonadək işçini əhatə edəcək. Həmçinin, minumum əməkhaqqında da artım olacaq.**

# Təhsil işçiləri minnətdarlıq edirlər

Sənəddə bildirilirdi ki, 2022-ci ilin əvvəlindən 2 milyondan çox insanı əhatə edən pensiya, müavinət, təqaüd, əməkhaqqı, sosial yardım formasında sosial ödənişlərdə artımlar olacaq. Qeyd olunurdu ki, ümumən aparılan islahatlarda məqsəd yeni humanist yanaşmaların tətbiqini həyata keçirməkdir. Son illərdə bu istiqamətdə mühüm addımlar atılıb, qarşıdakı dövrdə də davam edəcək.

Prezident İlham Əliyevin 2021-ci il dekabrın 17-də imzaladığı yeni iki sərəncam isə ölkəmizdə təhsil işçilərinin sosial müdafiəsinə diqqət və qayğının növbəti təzahürüdür. Sərəncamlarla 2022-ci il yanvarın 1-dən dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin maaşları orta hesabla 20 faiz, gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin maaşları orta hesabla 40 faiz artırılır.

Yeni sərəncamları ölkənin bütün təhsil işçiləri kimi Abşeron rayonu, Masazır kənd 5 saylı tam orta məktəbin kollektivi də böyük rəğbətlə qarşılayıb. Məktəbimiz gənc olduğuna görə orada tədrislə məşğul olan müəllimlər də əsasən diaqnostik qiymətləndirmədən keçib fəaliyyət göstərənlərdir. Məktəbimizdə gənclərin çağırışaqədərki hazırlığı ilə məşğul olan hərbçi müəllim Ülvi Qədir Qarabağ qazisidir. Onun maaşının 40 faiz artırılması, eləcə də fiziki tərbiyə rəhbəri Elvin Səmədovun əməkhaqqının 30 faiz artırılması onların ailə büdcəsinə hissolunacaq qədər kömək edəcək. Çünki, sərəncamda göstərildiyi kimi, 2022-ci il yanvarın 1-dən dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin maaşları orta hesabla 20 faiz, gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin maaşları orta hesabla 40 faiz, fiziki tərbiyə rəhbərlərinin maaşları orta hesabla 30 faiz artırılır.

Onu da qeyd edək ki, sərəncama görə, təhsil müəssisələrində çalışanların əməkhaqqı artımı 165 min təhsil işçisinə şamil olunacaq. Bu dəstək tədbiri, onların sosial müdafiəsinin gücləndirilməsi məqsədi daşıyır. Sənədə görə artımların edilməsi məqsədlə dövlət büdcəsində 273 milyon manat illik əlavə vəsait nəzərdə tutulub.

Qeyd edək ki, 2022-ci ilin sosial islahatları dövlət başçısının "Əhalinin sosial rifahının qorunması sahəsində



əlavə tədbirlər haqqında" 2021-ci il 16 oktyabr tarixli Sərəncamına əsasən reallaşdırılacaq. Yeni ildən tətbiq ediləcək bu islahatlar üçün sənəddə göstərildiyinə görə, illik əlavə 1,5 milyard manat vəsait nəzərdə tutulub. Həyata keçirilən isslahatlar, təhsil işçiləri də daxil olmaqla, 2,1 milyondan çox şəxsi əhatə edəcək. Bu isə dövlət başçısının hər bir vətəndaşının sosial rifahının yüksəlməsi yolunda apardığı uğurlu və gərəkli sosial siyasətin əyani göstəricisidir.

Məktəbimizin kollektivi Prezident İlham Əliyev tərəfindən təhsil işçilərinə göstərilən bu diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildirirlər.

***Səlim MƏMMƏDOV,***
***Abşeron rayonu, Masazır kənd 5 saylı tam orta məktəbin direktoru***

Xalq qəzeti.- 2021.- 22 dekabr.- S.10.